*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Poetika.izm, 2024, № 2* *ISSN: 2663-2926*
*Səhifə: 84-91* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-2926.2024.2.84*

# Zahid Sarıtorpağın romanlarında şəxsi böhran fonunda özgələşmə

**Fəxriyyə İsayeva**
Mingəçevir Dövlət Universiteti
E-mail: fexriyyeisayeva_2020@mail.ru

**Annotasiya.** Müasir dünyada yadlaşma səbəbləri həyatın bütün istiqamətləri ilə bağlı olduğundan müxtəlif formalarda təzahür edə bilir. Zahid Sarıtorpağın, demək olar ki, bütün nəsrində yadlaşma mövzusu bu və ya digər dərəcədə əksini tapır. Bu əsərlərin əhatə etdiyi dövr torpaqlarımızın işğal altında olduğu, kapitalizm və bazar iqtisadiyyatı ilə birgə gələn yeni düzən, ictimai-tarixi dəyişikliklər dönəmidir. Burada cəmiyyətdə ülvi duyğuların yoxa çıxdığı, saf insani münasibətlərin pozulduğu və beləcə, insanların həyata, yaşadığı mühitə, ən pisi isə özünə yadlaşdığı ideyasını irəli sürür. Zahid Sarıtorpağın romanlarında ardıcıl şəkildə yer alan özgələşmə motivinin səbəbi maddi ilə mənəvi olanın yerdəyişməsi nəticəsində qəhrəmanların keçirdiyi şəxsi böhrandır.
**Açar sözlər:** çağdaş roman, yadlaşma, şəxsi böhran, Zahid Sarıtorpaq, Azərbaycan ədəbiyyatı

**Məqalə tarixçəsi:** göndərilib – 01.11.2024; qəbul edilib – 15.11.2024

# Alienation in the background of personal crisis in the novels by Zahid Saritorpag

**Fakhriyya Isayeva**
Mingachevir State University
Email: fexriyyeisayeva_2020@mail.ru

**Abstract.** In the modern world, the causes of alienation are associated with all aspects of life and can manifest themselves in various forms. The theme of alienation is reflected to one degree or another in almost all of Zahid Saritorpag's prose. The period covered by these works is a period of social and historical change, when our lands were under occupation, a new order came with capitalism and a market economy. Here he puts forward the idea that sublime feelings disappear in society, pure human relationships are disrupted and, thus, people are alienated from life, from the environment in which they live, and, worst of all, from themselves. The reason for the motive of alienation, which is constantly present in the novels of Zahid Saritorpag, is the personal crisis experienced by the heroes as a result of the displacement of the material and spiritual.
**Keywords**: contemporary novel, alienation, personal crisis, Zahid Saritorpag, Azerbaijani literature

**Article history:** received – 01.11.2024; accepted − 15.11.2024

## Giriş / *Introduction*

Müasir sosioloji tədqiqatlar yadlaşma – özgələşmə səbəblərini daha çox qloballaşma şəraitində texnologiya sahəsindəki kəskin dəyişiklik və inkişaf, sosial təbəqələşmə və insanın fərdiliyinə əhəmiyyətli təsir edən digər amillər kontekstində təhlil edir. Bədii əsərlər də insanın sosial deqradasiyası, cəmiyyətə yadlaşması, çöküşü kimi məsələləri bu amillər nöqteyi-nəzərdən gözdən keçirir.

Müasir dünyada yadlaşma səbəbləri həyatın bütün istiqamətləri ilə bağlı olduğundan müxtəlif formalarda təzahür edə bilir. İqtisadi, siyasi, ictimai, mədəni və s. amillərdən qaynaqlanan yadlaşma anlayışı kəskin sərhədlərlə ayrılmasa da, formalaşdığı zəmin əsasında təsnifləndirilir. İqtisadi qeyri-sabitliyin hökm sürdüyü müasir kapitalizm şəraitində işsizlik, onun doğurduğu yoxsulluq, qeyri-bərabər həyat şərtləri insanın cəmiyyətə yadlaşmasının əsas səbəblərindən biridir. Zahid Sarıtorpaq bütün romanlarında cəmiyyəti narahat edən, dərindən düşündürən məsələləri önə çəkir. Modernizmin estetik konsepsiyasının əksi üçün yadlaşma və tənhalıq ən unikal və xarakterik mövzudur. Milli, mənəvi və dini dəyərlərin deqradasiyası, ideoloji zəmində uzlaşmaların pozulması, daha çox qarşıdurmalara səbəb olan dünyagörüşlərin toqquşması kimi problemlər insanın tədricən öz mahiyyətindən uzaqlaşmasına gətirib çıxarır. Bu baxımdan Zahid Sarıtorpağın, demək olar, bütün romanlarında yadlaşma mövzusu bu və ya digər dərəcədə əksini tapır.

İqtisadi-siyasi və ictimai-mədəni mühitin bədii əsərə təsiri danılmazdır. Keçid dövrü yaşamış, müharibə, itkilər, qaçqınlıq və köçkünlük, indi üstəlik, içərisində həm də pandemiya ağrıları daşımış insanın özünü cəmiyyətdən təcrid olunmuş, bağları qopmuş kimi hiss etməsi qanunauyğunluqdur. Münasibətlərdə soyuqluq, doğmalar arasındakı əlaqələrin, az qala, yoxa çıxacaq qədər azalması, fərdiyyətçilik hissinin artması, nəticədə, insanların getdikcə qopmasına, təcrid həyatı sürməsinə gətirib çıxardı. Bu qloballaşmış tənhalaşma və yadlaşma dövrün bədii əsərlərində az və ya çox dərəcədə mütləq hiss olunmaqdadır. Romanlarının təhlilindən də müşahidə edildiyi kimi, çağdaş Azərbaycan ədəbiyyatında magik realizmin ən dəyərli nümunələrini yaradan Zahid Sarıtorpağın romanları bu baxımdan xüsusilə seçilir. Onun əsərlərindən duyulan iniltilər bütöv bir xalqın ağrısıdır. Bu romanlar cəmiyyətdə ülvi duyğuların yoxa çıxdığı, saf insani münasibətlərin pozulduğu, onların yerini xəyanətlər, oğurluq və qətllər, təcavüzlər tutduğunu göstərməklə, sanki dünyanın işığının azaldığını, hamının bir-biri ilə araya məsafələr qoyduğunu və beləcə, insanların həyata, yaşadığı mühitə, ən pisi isə özünə yadlaşdığı ideyasını irəli sürür.

Bir neçə il öncə çağdaş müəlliflərin öz romanlarında cəmiyyətimizin problemlərini yazmadığı, zamanın diqtə etdiyi gerçəklərdən qaçmaq üçün mistik, magik realist, postmodernist mətnlərə sığındığı ilə bağlı Azərbaycan mətbuatında polemikalar gedirdi. Gerçəklik isə bundan ibarətdir ki, hansı üslubda yazılmasından asılı olmayaraq, bu əsərlərdə cəmiyyətlə aktiv və ya passiv mübarizə əksini tapır. Yenilənən dünyanın düzəninə ayaq uydura bilməyən qəhrəmanlar öz doğruları uğrunda savaşa bilmədiyi təqdirdə susub özünə çəkilməyi də mübarizə üsulu olaraq seçir.

## Əsas hissə / *Main part*

Zahid Sarıtorpaq bütün əsərlərində zamanın bu və digər dərəcədə obrazını canlandıra bilən, bütün ağrı və acılarını nişan verən müəlliflərdəndir. Bu romanların əhatə etdiyi dövr torpaqlarımızın işğal altında olduğu, kapitalizm və bazar iqtisadiyyatı ilə birgə gələn yeni düzən, ictimai-tarixi dəyişikliklər dönəmidir. Odur ki, bu mətnlərə dərin kədər, hətta bir çox hallarda ümidsizlik xasdır. Bu əhvali-ruhiyyə, ilk növbədə, romanların adına yansıyır: “Əlifba bayramında qətl”, “Dərdin sarı çəpkəni”, “Kül”, “Qarğa marşrutu”, “Quşların intiharına ağlamayın”, “Köhnə mücrüyə elegiya” kimi adlar mətnin enerjisini sərlövhəyə köçürür. Əsərin adının bütövlükdə məzmun və ideyanı əhatə edən mexanizm, ən əhəmiyyətli məna elementlərinə vurğu olduğunu, fikri vacib olan əsas kontekstə cəmlədiyini nəzərə alsaq, deyə bilərik ki, sərlövhə mətnin ümumi atmosferini oxucuya aşılamaq

gücündədir. Bu baxımdan Zahid Sarıtorpağın romanları adından başlayaraq oxucunu hüznlü ovqata kökləyir. Bu əsərlərin cəmiyyət içində özünə yer tapa bilməyən qəhrəmanlarının bütün bədbəxtliklərinin səbəbi ictimai bərabərsizlikdən, maddi və mənəvi zədələrdən qaynaqlanır.

Zahid Sarıtorpağın romanlarında ardıcıl şəkildə yer alan özgələşmə motivinin səbəbi maddi ilə mənəvi olanın yerdəyişməsi nəticəsində qəhrəmanların keçirdiyi şəxsi böhrandır. Maddiyyatın ən vacib olana çevrilməsi insanın öz mənəvi aləmi ilə birgə həyatın mənasını itirməsinə, əsas mahiyyəti pul, sosial status kimi anlayışlara yükləməsinə gətirib çıxarır. Bu nəticəyə varana kimi isə özgələşmə prosesi bir neçə mərhələ keçir: öz daxili aləmindən qopan insan zamanla maddi nemətlərə tutunduqca yaxşılıqları gərəksiz sayır, insanlara da yadlaşır – onun üçün vəzifə, mövqe, var-dövlət məqsədə çevrilir. Bu məqsəd dalınca qaçarkən yolda öz mahiyyətindən də uzaqlaşdığının fərqində olmur. Bir vaxt xəbər tutanda isə öz ilkin mahiyyətinə yadlaşmış insan hər şey üçün özünə haqq qazandırmağı bacarır, bu yadlaşmanın geriyə dönüşü böyük sual altına düşür. İlkin mahiyyətindən uzaqlaşan, "yaratdığını özünə allah bilən insan" (R.Behrudi) nəticədə ətraf aləmin əşyasına çevrilir, idarəetmə prinsipi kökündən pozulur. Zahid Sarıtorpağın obrazlarının özgələşməsi əsasən öz məninə, ilkin başlanğıcına olur. Əksər hallarda müəllif bu mənəvi çirkinləşmə nəticəsindəki yadlaşmadan qurtulmanın yolunu fiziki məhvolmada görür. Ölüm, başqa məkan və zamana adlama, yeni yol, yeni həyat bu əsərlərdə gerçək dünyada çirkaba batan obrazların təmizlənməsi şansıdır. Bu əsərlərdə çirkaba batanın təmizlənməsinə inam və ümid bataqlığa qərqolma qədər çıxılmazdır, qurtulmaq üçün çabalamaq daha da dibə batmağa səbəb olur, boğulma əzablardan qurtuluşdur. Amma bu qurtuluş birdəfəlik son kimi yox, yeni başlanğıc kimi simvolizə edilir, yəni bu, ölüb yox olmaq deyil, metafizik anlamda ölüb yenidən başlamaqdır. Bu mənada "Quşların intiharına ağlamayın" (2019) romanının protaqonisti Qaraqız fərqlidir. O bəzən intihar haqqında düşünsə də, seçimi mənən ölmək olur. Başqaları ilə tamamlanmadan özünü daim yarımçıq hiss edən Qaraqız istədiyi ilə birlikdə ola bilməyəndə mümkün olanla birgəliyi seçir, yanlış adamlarla yanlış münasibətlər onun içərisindəki az-çox təmiz qalmış künc-bucağa da çirkab çiləyir. O öz dərmanını yenə dərdinə sığınmaqda görür. Bu romanda Zahid Sarıtorpağın insan psixologiyasına dərindən bələdliyinə şahid oluruq. Təcavüz qurbanlarının zamanla öz "cəllad"larını sevməsi, onlardan mental asılılığı, getdikcə onlara bənzəməsi məqamı romanda tədricən yerini tutur.

Çağdaş nəsrimizdə əsas qəhrəmanı qadın olan romanlar sayca elə də çox deyil. Üstəlik, qadının bütün mənəvi problemləri ilə dolğun, hərtərəfli obrazını yaratmaq müəllifdən xüsusi bacarıq tələb edir. Qaraqız obrazı nəsrimiz üçün fərqli, yenidir. Cinsi diskriminasiya probleminin qabardıldığı, cəmiyyətdəki kişi və qadın ayrı-seçkiliyi fonunda müəyyən qədər gender bərabərsizliyi məsələlərinə toxunulan əsəri "feminist roman cəhdi" adlandıran ədəbiyyatşünas Mətanət Vahid Qaraqızın şəxsi böhran səbəbi və mənəvi çöküşünü aldığı zədələrdə görür: "Yeniyetməlik travması Qaraqızın özünə hörmət və güvən hissinin formalaşmasına mane olur, o, həmişə özünü kirlənmiş hiss edir, şüuraltı olaraq yaxşı heç nəyə layiq bilmir. Mahiyyətcə güclü, dürüst, prinsiplərə sadiqliyində bərqərar bir qadın deyil; çox tez sına, dəyərlərə arxa çevirə bilir. Qaraqızın mənəvi çöküşü, deqradasiyası üçün elə bircə Xəlilə vurulub, sonra onu itirməsi kifayət edir. O, cəmiyyətdəki hər cür mənəvi eybəcərliyin köləsidir, azad deyil və özünə bənzəyənlərə (akvariumdakı balıqlara) əzab verməklə öz köləliyinin qisasını alır" [10, s.10].

"Quşların intiharına ağlamayın" romanında Qaraqızın cəmiyyətə yadlaşması qadın kimi təklənməsi fonunda baş verir. Zahid Sarıtorpaq bu romanla çox mühüm bir ictimai problemə diqqət çəkir: əziyyət görəndə, döyülüb-söyüləndə, əməyi mənimsəniləndə və hətta təcavüzə məruz qalanda belə qadının əksərən özünün günahkar bilinərək təklənməsi. Qaraqız müdafiə olunacağını bilsə idi, qurban olduğu halda, təcavüzün günahkarı elan edilməyəcəyindən əmin olsaydı, başına gələnləri heç olmasa, ən yaxınlarına danışar, mənəvi-psixoloji dəstək görər və komplekslərindən qurtulardı. Bu roman qəhrəmanın yaşantılarına daha çox psixoloji qatda nüfuz edərək onun şəxsi faciəsini və

bu fonda şəxsi böhranını bütövlükdə cəmiyyətin faciəsi ilə eyniləşdirir. Qaraqızın mənəvi tənhalığı qadınların cəmiyyətə yadlaşmasının ümumiləşmiş timsalıdır. “Əvvəllər bu haqda çox fikirləşir, olub-keçənləri ürəyinə dərd edir, “belə getsə, özümü öldürəcəm” deyirdi. Çıxış yolu tapmayanda ömrünün gələcək adlı tək bir nəfəsliyi vardı ki, onun aynasını qırıb dərindən ah çəkirdi. O dar nəfəslikdən yer üzünün bütün kişilərinə nifrət etdiyini hayqırırdı. Sonra da çarəsizcəsinə: “olan olub, torba dolub” – söyləyir və təsəllini bu düşücələrdə tapırdı: “Uşaq olmuşam. Neyləyim? Allah özü görür ki, məni aldadıblar…” [8, s.17-18] Bu cəmiyyətlə mübarizəyə gücü yetməyəcəyini bilən qadın çarəni özünə çəkilməkdə görür. Bununla belə, Qaraqız mənən özü ilə tamamlana bilən qadın deyil. Ona görə fiziki təcavüz nəticəsində cəmiyyətə tamamilə yadlaşmış qadın elə həmin cəmiyyət tərəfindən mənəvi təcavüzə də məruz qalır, bu dəfə könüllü. Tənqidçi-ədəbiyyatşünas Elnarə Akimovanın da qeyd etdiyi kimi, ictimai bəlalar Zahid Sarıtorpağın bir çox əsərlərini birləşdirən ümumi xətdir: “Romanda çağdaş dünyanın bəlaları, insanlığın düçar olduğu fəci hallar obrazların yaşamında təsvirini tapır. Narkotik, lezbiyanlıq, insanların dünya nəfsinə uyaraq dəyərlərini itirməsi... hər biri əsərdə çöküş ruhunun yaranmasını stimullaşdırır... Əsərdə bir şəxsin taleyindən yola çıxaraq müxtəlif məsələlər – insanın nəfsi, cinsəl azadlığı, sosial problemlər, cəmiyyət bəlaları, “ağ ölüm” – narkotik, insan xislətinin naqis tərəfləri, məişət pozğunluqlarına vurğu salınır. Maraqlıdır ki, bir-birini əvəzləyən bu yarıtmaz hallar növbə ilə açılır, müəllif sanki iri bir sap topasının ilgəyini sökə-sökə mahiyyətin çılpaq nüvəsinə çatmaq istəyir. Ordan o yana isə həyat yoxdur, boşluq var, həyata üsyan var, intihar anı var” [1, s.4].

Böyük filosof və psixoanalitiklərin araşdırmaları belə bir ümumi nəticəyə gəlmək imkanı verir ki, bəşərin xilası yalnız insanın öz iç dünyasına baş vurması, ruhunun istəklərinə səs verməsi, özünüdərk vasitəsilə mümkündür. Zahid Sarıtorpağın romanlarında maddiyyatı mənəviyyatdan üstün tutan və beləcə, öz sonunu sürətlə yaxınlaşdıran qəhrəmanlar iç səsinə qulaq verə bilməyən, zahirə aldanan, həyatın yalnız “qabığında” gün keçirən obrazlardır. Modernist nəsrimizin uğurlu nümunəsi olan “Dərdin sarı çəpkəni” (2017) pritça-romanında real və mistik dünyaların, müxtəlif məzmunlu mətnlərin Bulud müəllimin həyatında bağlantı yaratması həyat və ölüm haqqında düşüncələrə sövq etməklə, yaradılışın mənası, varlığın mahiyyəti barədə fikirlərə yönəldir. Zamanın burulğanında sovrulan insan bəzən nəyin gerçək, nəyin şüurunun uydurduğu olduğunu fərq edə bilmir. Bulud müəllim dünyanı fərqli görməyə başlayır, hər şey sarı rəngin müxtəlif çalarları içindən ona baxır. Tibbi araşdırmalar nəticəsində bəlli olur ki, onun bu xəstəliyindən dünyada cəmi altı nəfərdə var, o özü yeddincidir və üstəlik, bunun üçün ona yaxşı bir ödəniş edilir. Atanın bu qeyri-adi xəstəliyini övladları özləri üçün göydəndüşmə şans kimi dəyərləndirirlər. Əllərinə keçən məbləğ isə onları azdırır, düz yoldan sapdırır. Bəs Bulud müəllim özü necə?! Düçar olduğu bu “birrəng üzüntü” onun üçün maddi imkanlar yaratsa da, zamanla özünün “mənim naftalin qoxuyan müəllim həyatım” adlandırdığı mahiyyətindən uzaqlaşır.

Həkimlərin dərdinə dərman tapmadığı xəstəliyə Bulud müəllim türkəçarə ilə çarə tapmağa çalışır. Yeri gəlmişkən, qeyd edək ki, Zahid Sarıtorpağın bir çox romanlarında mənəvi böhranın bir növ, səbəb-nəticəsi kimi, fiziki xəstəliklərə müraciət olunur: şəkər, alzeymer, demensiya, letargiya yuxusu və s. Bulud müəllim də fiziki xəstəliyinə dərman tapmamış mənəviyyatı da “azarlayır”. Əsərdən gəlinən nəticə də bu olur ki, bəlkə də bədənin xəstəliyinə çarə tapmaq olar, amma mənəviyyat əldən gedibsə və xəstə özü sağalmaq istəmirsə, kədərli son labüdləşir – insan mənəvi çöküşə və məhvə tabe olur. Bulud müəllimin fərdi yaşamlarının maraqlı ekstremal situasiyada açıldığını qeyd edən ədəbiyyatşünas Tehran Əlişanoğlu romanda təhkiyənin dünyasını dəyişmiş baş qəhrəmanın dilindən verilməsini obrazın iç dünyasının, ekzistensial varlığının təqdim olunması kimi şərh etməklə yanaşı, bu üsulu şərti olaraq səhv hesab edir: “Səhv”ə qayıdaq; təhkiyə əgər qəhrəmanın iç nəzərlərindən (üstəlik birinci şəxsdə, özü özü haqqında) aparılırsa, oxucu əmindir ki, qəhrəman sağdır; danışırsa, gec-tez gedib hekayənin, romanın söyləndiyi nöqtəyə-məqama çıxacağıq. Hazırkı halda bu, ekzistensial dərk məqamıdır; amma romanın sonundan belə məlum

olur ki, ölümünü də, hətta uçduğu cənnətə qovuşmağın təəssüratını da qəhrəmanın iç nəzərləri bizə xəbər verir ("Elə bu sevgiylə də Şəfiqənin əlini əlimə alıb, laylanan nur qatlarının içiylə doğmalarıma sarı yola düzəldim. Onun əli çox soyuq idi. Amma soyuğu elə istiydi ki...") "Səhvdir", amma şərti səhvdir. Çünki romanın lap əvvəlindən, ilk cümlələrdən bilirik ki, bu, "tula misallı gərdişdən heç nə gözləməyən" qəhrəmanın "gül kimi pak ruhunun" söylədikləridir; çirklənmiş dünyadan silkinib özünə qayıdan ruhun romanıdır. Fəlsəfə təzə olmasa da, mündəricəsi təzədir." [2, s. 578]

Zahid Sarıtorpağın romanlarıdakı öz ali məninə, saf ruhuna yadlaşmış insanlar ümidsizlik doğuracaq qədər, birmənalı şəkildə pislər, şər təmsilçiləri deyillər. Bəzən onların içərisindən yaxşılıq, gözəllik, işıq qığılcımları sayrışıb doğru yolu, çıxışı nişan verir. "İşıq gələn tərəf"ə gedib xilas olmaq qəhrəmanlıqdır, buna isə bu obrazların çoxunun gücü çatmır. Ölüm sanki bütün çarəsizliklərdən, çıxılmazlıqlardan xilas kimi, daha çox kirlənməyə imkan verməmək üçün onlara lazım olan məqamda köməyə gəlir, yalnız bu an Bulud müəllimlər hər şeyi təhrif olunmuş sarı rəngdə deyil, öz rəngində görə bilir: "– Onlar kəfənlə ağ günə çıxıblar, Bulud. Bəs sən bilimirsən ki, Keçiqıranda ağ günə çıxmağın yolu ancaq kəfənə bürünməkdən keçir?" [7, s.145] Ruhu kirlənmiş, yaradılışın məramına baş vurmaqdan imtina edib dünya malına, rifaha bağlanmaqla öz ilkin saflığına yadlaşan insanı ölüm qanadlarına alıb mənəvi aləmə çəkir, daha da çox batmasına imkan vermir.

Mistik elementlərlə zəngin "Qarğa maşrutu"nun qəhrəmanı kiçik yaşlarından mənəvi tənhalığa yuvarlanmış Nihatdır. Atalığının davranışları azmış kimi, doğmaca anasının ögey münasibəti də onu yadlaşdırır, sərtləşdirir. Nihat anasından nə başqa analar kimi onun üçün nigaranlıq, istilik duyur, nə də qayğısını, sevgisini hiss edir. Anası onu nəinki müdafiə etmir, hətta atalığının ayağına verir. Hər şeydən usanmış, ümidsizliyə qapanmış yeniyetmə burada onu saxlayan heç nə və heç kimin olmadığının fərqinə varıb yeni həyat ümidilə paytaxta üz tutur. Burada hər şeyin daha fərqli, daha yaxşı olacağı ümidilə Nihat qohumunun köməyilə Binə bazarında xaçapuri satmağa başlayır.

Z.Sarıtorpağın romanlarında diqqəti cəlb edən əsas məqamlardan biri də işsizlik səbəbindən paytaxta üz tutan rayon, kənd adamının mənəvi tənhalığıdır. Meqapolis həyatına hətta sürətlə adaptasiya olanda belə bu qəhrəmanlar şəhər həyatına nəzərən marginaldırlar. Romanda məkanlar da obrazlar kimi, simvollar vasitəsilə ümumiləşdirilir. "Bazar, mahiyyət etibarilə, burada təsvir olunan dövrün, cəmiyyətin xarakterini, mövcud mənfilikləri, bəzi insanların qəlbinə hakim kəsilən şeytani hərisliyi ifadə edərək simvolik məzmun daşıyır. Əslində, geniş və fəlsəfi anlamda yanaşsaq, dünya özü də böyük bir bazar deyilmi?! – İnsan bazarı! Bu "bazar"da yuxarıda sözügedən insanların dəyəri nə qədərdir və ümumiyyətlə, dəyəri varmı?" [4, s.163] Burada Nihatın həyatının yepyeni, amma daha çətin, daha qayğılı günləri başlayır. Roman boyu izlədiklərimiz cəmiyyətin köməksizlərə, təklərə qarşı amansızlığını nümayiş etdirir.

Nihata onu sevən yaşca böyük qadın kömək əlini uzatsa da, özünün yeganə gücü dişlərindədir – haqsızlıqla, şiddətlə qarşılaşdığı zaman canavar kimi qurbanının boğazını çeynəyib qanını sovurur. "Qarğa marşrutu" bir "vampir"in hekayətidir – insanların, cəmiyyətin, daha böyük mənada, pisliyin vampirləşdirdiyi, qaniçənə çevirdiyi günahsızın. "Naqis ictimai mühitdə, "qüvvətə və altuna tabe dünyada" İblisə yalnız bir yerdə və bir dəfə deyil, addımbaşı rast gəlmək mümkündür. Belə dünyada İblis özünü evindəki kimi hiss edir. Bu dünyanın hörmətli nümayəndəsi də, nurani qocası da İblisdir" [5, s.90]. Bu naqis ictimai mühitin qurbanına çevrilən Nihat hər dəfə haqsızlıqla qarşılaşdıqca dişlərinin dibi gizildəyir. Onun vampirliyi şər üzərindəki qeyri-ixtiyari məhkəməsidir, lakin bu məqamda Nihat ədalətli "hakim" olsa da, cəzalandırma üsulları islahedici deyil. Onun pisləri və pislikləri cəzalandırmaq məqsədi daşıyan qan hərisliyi içərisində qisas, güc, daha böyük pislik daşıyır və dolayısı ilə demək olar ki, şərə xidmət edir. Beləliklə, şərə qarşı mübarizəyə başlayan xeyir də öz ilkin mahiyyətindən uzaqlaşır, xeyir də dönüb şər yolu gedir.

Zahid Sarıtorpağın bütün romanlarında xeyirlə şərin bəzən açıq, bəzən gizli qarşıdurmasını izləyirik. “Qarğa marşrutu”nda Nihat atasını itirməklə ailəsində cücərən yadlaşma toxumunun cəmiyyətə atdığı, pisliyin doğurduğu daha bir qurbandır. Onun şərlə mübarizə üsulu yanlış olduğundan məhvi labüddür.

Qeyd edək ki, Z.Sarıtorpaq cəmiyyət və insan problemini bütün romanlarında irfan və təsəvvüf işığına bələyir, olayları magik realizmin sirli-sehirli pərdəsinə bürüyüb təqdim edir. İctimai problemləri bədii müstəviyə gətirən bu əsərlərdəki irreallıq onların gerçəkliyinə xələl gətirmir, əksinə, tamamlayır. Bu müstəvidə xeyiri simvollaşdıran əşya, məkan və obrazlar sırasında kəpənəklər, quşlar, göl, çay, səma, günəş, ağaclar, çiçəklər və s. varsa; şəri qan, mazut, bataqlıq, vulkan, zəlzələ, ulartı, qorxunc həşəratlar və yırtıcı quşlar və s. ifadə edir. Motivlər, rəmzlər, elementlər Zahid Sarıtorpağın bir romanından digərinə keçərək onları tematika və üslub baxımından bir-biri ilə bağlayır, bir növ, bütövləşdirir.

“Kül” (2018) romanında müəllif çağımızın mənzərəsi fonunda, 2010-cu illərin mövcud ictimai münasibətləri çərçivəsində insan taleyinə, psixoloji dərinliklərinə nüfuz edir. Zamanın öncə şüurda, bu təsirlə də talelərdə yaratdığı təbəddülatların insanın daxili aləmində, intim dünyasında formalaşdırdığı dəyişikliklərə işıq tutur. “Bir daha deyirəm: sevgisizlikdən sizin hamınız – ölünüz də, diriniz də bu gündədi. Həyatın içində də, astar üzündə də suda boğulmuş milçək kimi komadasınız! Təpənizə kül olmayana qədər ayılmayacaqsız!... Bunu sizə mən deyirəm, mən! Gerisini özünüz bilərsiz...” [7, s.242] “Kül” romanında Daunun mikrofonla olsa da, sakit tərzdə dediyi bu sözlər insanın və insanlığın bəlasını nişan verir. Bütün bəlaların səbəbi “başa kül olmayınca” – bədbəxtlik qapını döyməyincə, ölüm, itki doğmaları bir-birindən ayırmayınca insanların bəsirət gözlərinin qapalı olması, ayılmamasıdır. Dünya həyatı insanın nə qədər çəkdiyinin fərqində olmadığı letargiya yuxusudur; insan yalnız ölüm qapını döyəndə ayılır – bu, açıq və ya gizli ideya kimi Zahid Sarıtorpağın bütün romanlarından keçir. Bəşəriyyətin məhvinə səbəb insanın mənəvi böhranı, yaradılışın mahiyyətindən uzaqlaşmasıdır.

Zahid Sarıtorpağın romanlarında təhkiyə əsasən birinci şəxsin dilindən verilir. Bu sırada yeri gəldikcə protaqonistin daxili monoloquna da şahid oluruq. Belə ki, qəhrəman sanki öz keçmişinə, əməllərinə baxıb bugünkü yaşamının səbəblərini dünəndə arayır, yaxud bəzi məqamlarda hər hansı situasiyadakı davranışına özlüyündə haqq qazandırmağa çalışır. Bəzən isə obrazın daxili monoloqu ikinci məni ilə dialoqda özgə qənaəti kimi gerçəkləşir. “Daxili monoloqların müəllif təhkiyəsi çərçivəsində yerləşdirilməsi əsərin əhatə dairəsini daha da genişləndirir: bir tərəfdən, baş qəhrəmanın daxili aləmi incəliklərinə qədər işıqlandırılır, digər tərəfdən qəhrəmanın yaşayış, fəaliyyət göstərdiyi mühit, münasibətdə olduğu adamlar psixoloji təhlillərə cəlb edilir” [6, s.111]. “Köhnə mücrüyə elegiya” (2020) roman-monoloqunda birinci şəxsin dilindən nəqletmə yeri gəldikcə qəhrəmanın şüur axını ilə qovuşur. “Dərdin sarı çəpkəni” romanında olduğu kimi, burada da təhkiyəçi-protaqonist artıq həyatını dəyişmiş biridir. Roman ölmüş bir insanın xatirələri, gündəliyi kimi oxunur. Bu yaddaş gündəliyində əks olunanlar isə daha çox, yanlış yaşananlar üçün peşmanlığa bənzəyir. Ölüb dünyasını dəyişmiş insanın sağlığındakı həyatı haqqında söhbətləri onun mental olaraq hələ də həmin dünyada qaldığına, həyat və ölüm arasındakı var-gəlinə işarə edir. İshaqı bu aqoniyada saxlayan etdiyi yanlışlar və etmədiyi doğruları, bəlkə də gizli bir “bir də həyata gəlsəydim...” arzusudur. “...Hə, Sveta, belə götürəndə, hirslənməyimə baxma, bilirəm ki, sənin kimi elə mən də xəyanətkaram. İkimiz də Marata xəyanət elədik, bədəlini mən çəkdim. Elə sən də çəkdin... elə o özü də... O indi həbsxana qapısını təpikləyir yəqin. Sən taleyinin qapısını. Mənsə... De görüm, adına tabut deyilən, içinə pərçimləndiyim bu yeşiyi necə təpikləyə bilərəm? Təpikləməyə dəyərmi? Onsuz da gec-tez çürüyəcək... Böcəklərlə başlayacaq qiyamətim, böcəklərlə...” [9, s.84] İshaqın baş verənləri nəql etməkdə məqsədi günahını yumaq olmasa da, hər bir halda, əməlinə haqq qazandırmaq istəyi duyulur; çünki o, hadisənin səbəbini Maratın səfehliyində görür.

Ədəbiyyatşünas Lalə Həsənova "Köhnə mücrüyə elegiya" romanı haqqındakı fikirlərini ümumiləşdirərkən əsərin bütün qəmgin notlarına rəğmən, ümidsizlik aşılamadığını ifadə edir: "İnsanın yanlışlarını bütün mürəkkəbliyi ilə canlandıran yazıçı ümidsizliyə qapılmır, əksinə, yaşam meyarlarımız haqqında yenidən düşünməli olduğumuzu aşılayır. Bu gün yaşadıqlarımız - dünyanı saran virus, karantin, ümidsizlik və s. əsasən düşünülmədən yaşanılan həyatın bədəli olaraq qiymətləndirilir. Bu cür həyatdan bəşəriyyətə qalan isə yalnız müqəvva – canlını xatırladan içi boş bir maket ola bilər. Bu baxımdan, insanın müqəvvaya çevrilmə ehtimalını sərgiləyən əsər həyatda qoruyacaq heç nəyi qalmayan, tükənmiş müasir insan haqqında elegiya olaraq oxunur" [3, s.181]. Bu elegiyanın məramı fiziki yoxluğun insanın mənəvi ölümünə, doğmalar, dostlar arasındakı öncə fiziki uzaqlaşmaya, məsafələrə, daha sonra isə tamamilə yadlaşmaya səbəb olduğunu nümayiş etdirməkdir. Bəzən uşaqlığı bir həyətdə keçmiş, bir qabdan yemək yemiş, bir fincandan su içmiş ən yaxın adamların arasındakı yadlaşma səbəbi insanın mənəvi deqradasiyası nəticəsində etibarını itirməsi, zamanla tamamən tərk edilməsidir. Bu roman da digərləri kimi, əməllərə gendən (indiki halda, başqa dünyadan) baxıb analiz aparan qəhrəmanı önə çəkir və göstərir ki, sonrakı peşmanlıq fayda vermir.

## Nəticə / *Conclusion*

Zahid Sarıtorpaq bütün romanlarında "insanşünas" müəllif olması ilə seçilir. Bu əsərlər üslubi xüsusiyyətləri ilə yanaşı, həm də ictimai mahiyyəti, fəlsəfi və psixoloji xarakteristikası ilə diqqət çəkir. Yadlaşma mövzusunun təhlil və şərhi bu cəhətlərin hamısı özündə birləşdirir. Müəllifin ailəyə, cəmiyyətə yadlaşmış qəhrəmanları yalnız sosioloji deyil, metafizik mənada da təkdirlər. Bu təklik isə başqalarına olmaqla yanaşı, həm də və daha çox Özünə yadlaşmanı gətirir. Bu yadlaşma dərinləşdikcə uçurum boşluğu insanı ucalıq axtarışına sövq edir, qanadlarını açmağa, qucaq açmağa ehtiyac duyan insan bir gün Tanrı ilə qovuşacağı anın gözləntisi ilə yaşayır. Amma son anda o qovuşma körpüsünü adlamaq, yoxsa qorxularına yenik düşüb öz bataqlığına qayıtmaq – bu roman qəhrəmanlarının gizli və aşkar dilemması bundan ibarətdir. Zahid Sarıtorpaq obrazlarının bu gününü xarakterizə edərkən onu epizodiklikdən çıxarıb bütün ömür yolunun bir parçasına çevirməyi, səbəb-nəticə əlaqələri fonunda ifadə etməyi bacarır.

## Ədəbiyyat / *References*

1. Akimova, E. Zahid Sarıtorpağın ye ni romanı – "Quşların intiharına ağlamayın". Ədəbiyyat qəzeti. – 2018, 27 oktyabr, –s. 4-5
2. Əlişanoğlu, T. Milli nəsrdə Azərbaycan obrazı. – Bakı: Elm və təhsil, – 2017, – 611 s.
3. Həsənova, L. Şərin təntənəsi və ya yaşamaq haqqını itirənlər haqqında elegiya (Zahid Sarıtorpaq "Köhnə mücrüyə elegiya") 2020, Azərbaycan, № 7-8, – s.178-181
4. Xəlilova, A. Povest – çağdaş bədii düşüncənin axtarışlarında. Ədəbi proses – 2018. – Bakı: Hədəf nəşrləri, – 2019, – s.159-180.
5. Xəlilov, S. Cavid və Cabbarlı. Müxtəlifliyin vəhdəti (fəlsəfi etüdlər). – Bakı: Azərbaycan Universiteti nəşriyyatı, – 2001, – 180 s.
6. İmanov, M. Müasir Azərbaycan nərində psixologizm. Bakı, 2021, 168 səh.
7. Sarıtorpaq, Z. Dərdin sarı çəpkəni. – Bakı: Qanun, – 2017, – 358 s.
8. Sarıtorpaq, Z. Quşların intiharına ağlamayın. Azərbaycan jurnalı, – 2018, № 2, – s.15-64
9. Sarıtorpaq, Z. Köhnə mücrüyə elegiya. Azərbaycan jurnalı, – 2020, № 4, – s.56-101
10. Vahid, M. "Quşların intiharına ağlamayın" romanı – ümidsizliyə oda. Ədəbiyyat qəzeti, – 2020, 29 avqust. – s.10-11.

**Отчуждение на фоне личного кризиса в романах Захида Сарыторпага**

**Фахрия Исаева**
Мингечаурский государственный университет
E-mail: fexriyyeisayeva_2020@mail.ru

**Резюме**. В современном мире причины отчуждения относятся ко всем сторонам жизни и обнаруживаются в различных формах. Тема отчуждения в той или иной степени находит выражение, можно сказать, во всей прозе Захида Сарыторпага. Эти произведения охватывают время захвата наших земель, установления иовой реальности и общественно-исторических перемен с приходом капитализма и рыночной экономики. В обществе наблюдается потеря возвышенных мыслей, нарушение чистых человеческих взаимоотношений, что в результате приводит к идее отчуждения людей от жизни, окружающей среды и, что самое плохое, от самих себя. В романах Захида Сарыторпага последовательно наблюдается мотива отчуждения, причиной которого является личный кризис героев в результате смены материальных и моральных устоев.
**Ключевые слова:** современный роман, отчуждение, личный кризис, Захид Сарыторпаг, азербайджанская литература